Qədim Diyar Oktyabr 2026, Cild: 8, Sayı: 10, s. 136−141
Ancient Land October 2026, Volume: 8, Issue: 10, pp. 136−141
DOI: https://doi.org/10.36719/2706-6185/64/136-141

Demoqrafik-etnik dəyişikliklər kontekstində Qərbi Azərbaycanda azərbaycanlı əhalinin təhsil vəziyyəti (XIX əsrin sonu – XX əsrin əvvəli)

Səidə Quliyeva[1], Hikmət Əhmədov[1*], Elşad Bağırov[1]

Xülasə. *XIX əsrin sonu – XX əsrin əvvəlində Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində İrəvan quberniyasında yerli azərbaycanlı əhalinin etnik üstünlüyü tədricən azalır, köçürülən erməni əhalinin sayı isə artırdı. Məqalədə Rusiya imperiyası dövrünə aid statistik məlumatlar əsasında əhalinin etnik tərkibindəki dəyişikliklər göstərilir, bu dəyişikliklərin fonunda azərbaycanlı əhalinin təhsil imkanlarının necə formalaşdığı araşdırılır, ənənəvi (məktəb, mədrəsə) və dünyəvi təhsil müəssisələrinin (gimnaziya, müəllimlər seminariyası, yeni tipli məktəblər) təhlil olunur. Aparılan tarixi-demoqrafik və müqayisəli-statistik təhlil göstərirdi ki, Qərbi Azərbaycan cəmiyyətində demoqrafik təzyiqə cavab olaraq ikili təhsil modeli — dini məktəb-mədrəsə şəbəkəsi ilə dünyəvi gimnaziya və seminariya şəbəkəsinin paralel fəaliyyəti — formalaşdırmışdır. Bu vəziyyət dilin, dinin və mədəni kimliyin qorunmasını təmin etməklə yanaşı, milli ziyalı təbəqəsinin formalaşması üçün zəmin yaratmışdır. Tədqiqat tarixi-demoqrafik və müqayisəli-statistik təhlil metodlarına əsaslanır. Mənbələr müqayisə edilərək faktlar ümumiləşdirilmiş, tarixi-demoqrafik proseslərin təhsilə təsiri araşdırılmışdır. İmperiya statistikalarında işlədilən "tatar" və "müsəlman" terminləri nəzərə alınaraq, məqalədə müasir "azərbaycanlı" anlayışından istifadə edilmişdir.*

Açar sözlər: *Qərbi Azərbaycan, İrəvan quberniyası, tarixi demoqrafiya, təhsil tarixi, məktəb və mədrəsə, milli ziyalılar*

---

[1]Bakı Dövlət Universiteti, Tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt : hikmatahmadov@bsu.edu.az
Daxil oldu: 24 Mart 2026; Qəbul edildi: 11 Avqust 2026; Onlayn dərc edildi: 28 Oktyabr 2026
© Müəllif(lər) 2026. Bu açıq girişli məqalə Creative Commons Attribution–NonCommercial 4.0 Beynəlxalq Lisenziyasının (CC BY-NC 4.0) şərtlərinə uyğun olaraq yayımlanmışdır.

State of education of the Azerbaijani Population in Western Azerbaijan in the Context of Demographic and Ethnic Changes (Late 19th – Early 20th Century)

Saida Guliyeva[1], Hikmat Ahmadov[1*], Elshad Baghirov[1]

Abstract. *In the late 19th and early 20th centuries, as a result of the Russian Empire's resettlement policy, the Azerbaijani population of the Erivan Governorate, the indigenous inhabitants of the region, gradually lost its ethnic predominance, while the number of resettled Armenians increased. Based on statistical data from the Russian imperial period, the article traces changes in the population's ethnic composition and examines how educational opportunities for the Azerbaijani population took shape against this background. It analyzes the activity of traditional educational institutions (maktab, madrasa) and secular (gymnasium, teachers' seminary, new-type schools).*

Using historical-demographic and comparative-statistical methods of analysis, the article shows that, in response to demographic pressure, Western Azerbaijani society developed a dual educational model: the parallel functioning of a religious network of maktab's and madrasa's and a secular network of gymnasiums and seminaries. This situation ensured the preservation of language, religion, and cultural identity, and at the same time laid the groundwork for the formation of a national intelligentsia.

Keywords: *Western Azerbaijan, Erivan Governorate, historical demography, history of education, maktab and madrasa, national intelligentsia*

---

[1]Baku State University, PhD in History, Baku, Azerbaijan
[*]Corresponding author. E-mail: hikmatahmadov@bsu.edu.az
Received: 24 March 2026; Accepted: 11 Agustos 2026; Published online: 28 October 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrindən sonra ermənilərin Qacar və Osmanlı imperiyalarından Rusiya imperiyasının ərazilərinə köçürülməsi nəticəsində Cənubi Qafqazın etnik tərkibi kökündən dəyişmiş, İrəvan xanlığının ərazilərində azərbaycanlılar tədricən etnik üstünlüyünü itirmişlər (Əmrahov, 2022, s. 41–136; Qarayev, 2024, s. 122–128). Yeni rejimdə təhsil və maarif azərbaycanlılar üçün dilin, dinin və milli kimliyin qorunması vasitəsinə çevrilmişdir. Bu, tədqiqatın aktuallığının ilk amilidir. İkincisi, mövzu bu gün köçkünlərin Qərbi Azərbaycana (indiki Ermənistan Respublikasına) – öz tarixi torpaqlarına qayıtması prosesi ilə bağlı geniş ictimai-siyasi əhəmiyyət kəsb edir: azərbaycanlıların həmin ərazilərdə əsrlərlə mövcud olmuş təhsil və mədəniyyət ənənəsinin elmi şəkildə göstərilməsi bu tarixi haqqın əsaslandırılmasına xidmət edir.

Məqalənin məqsədi XIX əsrin sonu – XX əsrin əvvəlində İrəvan quberniyasında demoqrafik proseslərin azərbaycanlı əhalinin təhsil imkanlarına təsirini göstərməkdir. Bunun üçün azərbaycanlı əhalinin etnik tərkibinin dəyişmə dinamikası təhlil edilmiş, təhsil müəssisələri barədə mənbələrdəki məlumatlar ümumiləşdirilmiş, təhsil müəssisələrində etnik tərkibin dəyişməsi göstərilmişdir. Tədqiqatın xronoloji çərçivəsi Türkmənçay müqaviləsindən (1828) 1918-ci ilə – Ararat Respublikasının yaranmasına qədərki dövrü əhatə edir.

Ermənilərin Şimali Azərbaycan ərazisinə köçürülməsi və demoqrafik dəyişikliklər Azərbaycan tarixçiləri tərəfindən geniş araşdırılmışdır (Mahmudov və Nəcəfli, 2020; Məmmədova, 2017; Əmrahov, 2022; Həsənov və b., 2023; Qarayev, 2024). İrəvan quberniyasındakı azərbaycanlıların təhsil səviyyəsi və ziyalıları barədə də tədqiqatlar vardır (Allahverdiyev, 2022; Əhmədov, 2011). Lakin demoqrafik dəyişikliklərlə təhsil səviyyəsi arasındakı bilavasitə əlaqəni ayrıca mövzu kimi araşdıran kompleks iş demək olar ki, yoxdur. Bu da tədqiqatın elmi yeniliyini təşkil edir.

Metodlar

Tədqiqat tarixi-demoqrafik və müqayisəli-statistik təhlil metodlarına əsaslanır. Tədqiqata cəlb edilən ədəbiyyatlar müqayisəli təhlil edilmiş, tədqiqatın vəzifələrinə uyğun faktlar və yanaşmalar ümumiləşdirilmişdir. Daha sonra tarixi-demoqrafik proseslərin təhsil səviyyəsinə təsiri aydınlaşdırılmışdır. Rusiya imperiyası dövrünə aid statistikada etnik göstərici olaraq azərbaycanlılar "tatar" adlandırılır, "müsəlman" göstəriciləri isə həm etnik, həm də dini mənsubiyyəti bildirən anlayış kimi qeyd olunur. Biz isə məqalədə "azərbaycanlı" anlayışından istifadə etmişik.

Nəticə

Aparılan tədqiqat göstərir ki, Rusiya imperiyasının Qafqazı işğalından və bura ermənіləri köçürməsindən sonra İrəvan quberniyasında yerli azərbaycanlı əhalinin payı 1917-ci ildə 32,55%-ə qədər azalmışdır. Bu şəraitdə təhsil sadəcə maarifləndirmə vasitəsi olmaqdan çıxıb, milli kimliyin qorunması vasitəsinə çevrilmişdi. Bir tərəfdən məscid yanındakı məktəb və mədrəsələr şəbəkəsi dil və dini ənənələrin qorunmasına xidmət edirdi, digər tərəfdən gimnaziya, müəllimlər seminariyası və yeni tipli məktəblər milli ziyalı təbəqəsinin formalaşmasına zəmin yaradırdı. Dünyəvi məktəblərdə təhsil alan azərbaycanlıların sayı artsa da, gimnaziya və şəhər məktəblərində ermənilər üstünlük təşkil edirdi, azərbaycanlıların payı isə onların əhali içindəki payından xeyli aşağı idi.

Müzakirə

İrəvan quberniyasının inzibati bölgüsü və əhalinin etnik tərkibinin dəyişməsi.
İrəvan quberniyasında əhalinin say dinamikasını izləmək üçün ilk olaraq ərazinin inzibati bölgüsünə nəzər salmaq vacibdir. İşğaldan sonra Rusiya imperiyasının Qafqazda inzibati idarəçilik sistemində bir neçə dəfə islahatlar aparılmış, bir sıra quberniyaların ərazi bölgüsü dəyişdirilmişdir. Bu islahatlar Rusiya imperiyası üçün Qafqazda təkcə idarəetmə deyil, həm də mühüm strateji əhəmiyyət daşıyırdı. İşğaldan əvvəl mövcud olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 1849-cu ildə İrəvan quberniyası yaradılması da bu səbəbdəndir. Quberniya Rusiya imperiyasının Qafqaz canişinliyinin tərkibinə daxil idi və inzibati mərkəzi İrəvan şəhəri (müasir İrəvan/Yerevan) idi. Quberniyanın ərazisi əvvəl 5, sonra isə 7 qəzaya bölünmüşdür: Aleksandropol, Eçmiədzin (Üçkilsə), İrəvan, Novo-Bəyazid (Yeni Bəyazid), Naxçıvan, Sürməli, Şərur-Dərələyəz (Mamadaliev et al., 2021, s. 1803; Həsənov, 2022, s. 948–949, 953–957; Əmrahov, 2022, s. 25–40; Qafarov və Vəliyev, 2025, s. 27–28).

Quberniyanın ərazisi hazırki Ermənistan Respublikasının böyük hissəsini, Naxçıvan Muxtar Respublikasını və Türkiyənin İğdır vilayətini əhatə edir. Azərbaycan tarixşünaslığında və ictimai fikrində İrəvan xanlığının və İrəvan quberniyasının ərazisi Qərbi Azərbaycanın tərkib hissəsi kimi qəbul edilir.

İşğaldan sonra başlayan köç prosesi zamanı ermənilərin Qafqaza yerləşdirilməsi əhalinin say dinamikasının və etnik tərkibinin dəyişməsinə səbəb olmuşdur (Məmmədova, 2017, s. 26–44; Qarayev, 2024, s. 122–128). İradə Məmmədova *"İrəvan xanlığının əhalisi"* adlı tədqiqatında işğal ərəfəsində əhalinin etnik tərkibi barədə məlumat verir və etnik üstünlüyün azərbaycanlılara aid olduğunu göstərir (Məmmədova, 2017, s. 22). Təqribən 50 il sonra – 1873-cü ildə quberniyanın 569.870 nəfər əhalisinin 39,27%-ni azərbaycanlılar, 54,94%-ni ermənilər, 5,09%-ni kürdlər, 0,79%-ni ruslar təşkil edirdi; aysorlar, yunanlar və yəhudilər təqribən 0,44% idi (Kavkazskiy kalendar na 1884 god, 1883, p. 291). 1897-ci il ümumi siyahıyaalmasına görə isə İrəvan quberniyasında 829.556 nəfər əhalinin 313.176 nəfəri (37,75%) azərbaycanlılar, 441.000 nəfəri (53,2%) ermənilər, qalan 9%-i kürdlər, slavyanlar və başqaları idi (Məmmədova, 2017, s. 42–44; Həsənov, 2022, s. 956; Qarayev, 2024, s. 140–141). 1917-ci ildə quberniyanın 1.120.242 nəfər əhalisinin 364.635 nəfəri (32,55%) azərbaycanlılar idi. Beləliklə, azərbaycanlıların sayı artsa da (təqribən 223.800-dən 313.176-ya, sonra 364.635-ə), onların əhalinin nisbətindəki payı azalmışdır. Azərbaycanlıların payı quberniya mərkəzi İrəvan şəhərində və kütləvi köç baş vermiş qəzalar üzrə kəskin fərqlənirdi: 1917-ci ildə Aleksandropol qəzasında 4,7%, Yeni Bəyazid qəzasında 28,3%, Üçkilsə qəzasında 29%, Sürməli qəzasında 46,5%, İrəvan qəzasında 57,4% (Həsənov, 2022, s. 956–958; Qarayev, 2024, s.142–145). 1905–1906-cı illərdə erməni millətçiləri və erməni terror təşkilatları tərəfindən yerli əhaliyə qarşı soyqırımı və etnik təmizləmə keçirilmişdir. Bu soyqırımı zamanı 10 min nəfərə yaxın günahsız insan qətl edilmiş, 100 min nəfər isə didərgin düşmüşdür (Mustafa, 2025, s. 19–23).

İrəvan xanlığı və Rusiya imperiyası dövrünə aid statistik məlumatların müqayisəsindən göründüyü kimi, əhalinin etnik tərkibində üstün olan yerli azərbaycanlılar yarım əsr ərzində azlığa çevrilmişdilər. *Demoqrafik proseslərin təhsilə təsiri.*

Xanlıqlar dövründə təhsil əsasən məscidlərdəki məktəb və mədrəsələrdə din xadimləri tərəfindən həyata keçirilirdi (Mahmudov və b., 2010, s. 187–189). Rusiya imperiyasının işğalından sonra bu müəssisələr fəaliyyətini davam etdirsə də, dövlətin nəzarətinə götürülmüş, yeni üsullu məktəblərlə əvəz olunmağa başlamışdır (Əmrahov, 2022, s.197–202). XIX əsrin sonlarında azərbaycanlı əhalinin əksəriyyəti kənddə yaşadığından, kənd əhalisi əsasən məscidlərdəki məktəblərdə təhsil alırdı. Bu təhsil dilin, dinin və ənənəvi həyat tərzinin qorunmasına imkan verirdi. Dünyəvi təhsil isə, o cümlədən gimnaziyada illik ödənişin 16–25 rubl olması (Mamadaliev et al., 2021, p. 1806) kənd əhalisi üçün çətinlik yaradırdı.

Qəza məktəbləri 1831–1843-cü illərdə, gimnaziya və seminariya isə 1881-ci ildə fəaliyyətə başlamışdır. "Qafqaz təqvimi"nin 1890-cı il üçün olan cildində quberniyada 70 təhsil müəssisəsinin olduğu göstərilir (Kavkazskiy kalendar na 1890 god, 1889, pp. 61–62). Məktəblərin adlarına və yerləşdikləri ərazilərə görə orada təhsil alanların etnik tərkibini müəyyən etmək olur, lakin təəssüf ki, dəqiq statistik məlumat hazırlamaq mümkün deyildir. İrəvan qəza məktəbində 1850–1868-ci illərdə şagirdlər arasında ermənilər birinci, azərbaycanlılar (tatarlar) ikinci, ruslar üçüncü yerdə idi (Əmrahov, 2022, s. 138–141; Mamadaliev et al., 2021, pp. 1805–1806).

Demoqrafik dəyişikliklər fonunda dünyəvi məktəblərdə azərbaycanlıların sayı az idi. İrəvan gimnaziyasında azərbaycanlı şagirdlərin sayı zamanla artsa da, ümumi nisbəti dəyişməmişdi: 1884-ci ildə 48 nəfər (19,5%), 1914-ci ildə 131 nəfər (19,2%). 1900–1905-ci illərdə azərbaycanlıların nisbəti 12–13%-ə azalmışdır. Ermənilərin nisbəti isə 53–59% arasında qalmışdır (Mustafa, 2025, s.17–24; Mamadaliev et al., 2021, s. 1806; 2022a, s. 389; 2022b, s. 716–717; Həsənov et al., 2023, s. 217–219). Seminariyada da azərbaycanlıların nisbəti az idi: 1884–1908-ci illərdə 17–22% təşkil etmişdir. Bu göstəricilər azərbaycanlıların əhalinin sayındakı payından (1897-də 37,75%) xeyli aşağı idi.

1908–1909-cu tədris ilində quberniyanın 7 şəhər məktəbinin 888 şagirdindən 576-sı (64,9%) erməni, 225-i (25,3%) azərbaycanlı, 55-i (6,2%) rus idi. Azərbaycanlılar yalnız Ordubad məktəbində çoxluq təşkil edirdi, Naxçıvanda isə ermənilərlə fərq az olmuşdur (109 və 97) (Kavkazskiy kalendar na 1910 god, 1909, p. 601).

Tədqiqatlar İrəvan şəhərinin maarifçilik mühitinin azərbaycanlı ziyalıların formalaşmasındakı rolunu göstərir. Bu ziyalılar azərbaycanlılar üçün yeni məktəblərin açılmasında və təhsil prosesində aktiv iştirak edirdilər (Hüseynzadə, 2016; Allahverdiyev, 2022, s. 38–45; Əmrahov, 2022; Umudlu, 2024). Bizim fikrimizcə, ənənəvi və dünyəvi təhsilin paralel fəaliyyəti azərbaycanlı cəmiyyətinə adət-ənənələri, mədəniyyəti və milli kimliyi qorumağa, ziyalı təbəqəsi yetişdirməyə imkan vermişdir.

Statistik materiallara əsasən 1914-cü ildə təhsilalanların sayı azalmışdır (şəhər məktəblərində 1.310-dan 758-ə, ibtidai məktəblərdə 13.971-dən 12.786-ya). Müəlliflər bunu Birinci Dünya müharibəsinin başlanması ilə əlaqələndirir, 1915–1917-ci illər üzrə hesabatlar isə əlçatan deyil (Mamadaliev et al., 2022b, s. 716, 720–722). Ümumilikdə isə təhsilalanların əhaliyə nisbəti baxımından quberniya Qafqaz tədris dairəsində ən geridə qalan bölgələrdən biri idi (Qarayev, 2024, s. 468-508; Mamadaliev et al., 2022a, s. 396).

Nəticə

Tədqiqat göstərir ki, Rusiya imperiyasının Qafqazı işğalından sonra Qərbi Azərbaycanda azərbaycanlıların ümumi əhalinin nisbətində çəkisi kəskin azalmışdır. Azərbaycanlılar məscid məktəbləri və mədrəsələrlə yanaşı, dünyəvi müəssisələrdə də təhsil alır, maarifçilər yeni məktəblər açırdılar. Fikrimizcə, ənənəvi və dünyəvi təhsil müəssisələri birlikdə maarifçilik hərəkatına, milli kimliyin qorunmasına, ziyalıların formalaşmasına şərait yaratmışdır. Tədqiqatın məhdudiyyətləri mənbələrlə bağlıdır: mədrəsələr barədə statistika qorunmamışdır. Nəticələr Azərbaycanın "Böyük Qayıdış" proqramı baxımından əhəmiyyətlidir: Qərbi Azərbaycanda azərbaycanlılara məxsus təhsil müəssisələrinin, maarifçilərinin və ziyalıları olması onların bu ərazilərdə tarixi mövcudluğunun elmi əsaslandırılmasına xidmət edir.

Ədəbiyyat

Allahverdiyev, C. (2022). *İrəvan Müəllimlər Seminariyası.* Elm və təhsil.

Əhmədov, T. (2011). *İrəvan məktəbləri.* Mütərcim.

Əmrahov, Z. (2022). *İrəvan quberniyasının tarixi: 1850-1917-ci illər.* Nurlar NPM

Həsənov, H. (2022). XIX əsrin ortaları – XX əsrin əvvəllərində İrəvan quberniyasında inzibati-ərazi bölgüsü və etnodemoqrafik proseslərə dair. Akademik *Tarih ve Düşünce Dergisi*, 9(3), 946-963. https://izlik.org/JA32HD44KC

Həsənov, H., Qafarova, Z., Mustafayeva, S., və b. (2023). *XIX–XX əsrin əvvəllərində İrəvan şəhərinin tarixindən*. Birol Group MMC.

Hüseynzadə, R. L. (2016). İrəvan pedaqoji mühiti: İrəvan kişi gimnaziyası, İrəvan müəllimlər seminariyası, İrəvan qız gimnaziyası. *AQRA Elmi İnkişafına Dəstək İctimai Birliyi.* https://www.aqra.az

Kavkazskiy kalendar na 1884 god (1883). Tipografiya Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. yu na Kavkaze. Prezidentskaya biblioteka imeni B. N. Yeltsina.

Kavkazskiy kalendar na 1890 god (1889). Tipografiya Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Prezidentskaya biblioteka imeni B. N. Yeltsina.

Kavkazskiy kalendar na 1910 god (1909). Tipografiya Glavnonachal'stvuyushchego grazhdanskoyu chast'yu na Kavkaze. Prezidentskaya biblioteka imeni B. N. Yeltsina.

Qafarov, V., Vəliyev, X. (2025). *Azərbaycan ərazisi (1918–2025)*. Hərbi nəşriyyat.

Qarayev, E. (2024). *Qərbi Azərbaycan tarixi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri, İrəvan quberniyası materialları əsasında).* "Füyuzat".

Mahmudov, Y., Kərimov, F., Xanbabayeva, M., Əhmədov, İ., & Cəfərova, K. (2010). *İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*. Azərbaycan

Mahmudov, Y., Nəcəfli, G. (2020). *İrəvan əyalətinin kameral təsviri*. "Turxan" NPB

Mamadaliev, A. M., Bogdan, V. V., Svechnikova, N. V., & Volkov, A. N. (2021). The system of public education in the Erivan Province in 1849–1917. Part 1. *Bylye Gody, 16*(4), 1800–1813. https://doi.org/10.13187/bg.2021.4.1800

Mamadaliev, A. M., Bogdan, V. V., Svechnikova, N. V., & Miku, N. V. (2022a). The system of public education in the Erivan Province in 1849–1917. Part 2. *Bylye Gody, 17*(1), 386–402. https://doi.org/10.13187/bg.2022.1.386

Mamadaliev, A. M., Bogdan, V. V., Svechnikova, N. V., & Miku, N. V. (2022b). The system of public education in the Erivan Province in 1849–1917. Part 3. *Bylye Gody, 17*(2), 714–728. https://doi.org/10.13187/bg.2022.2.714

Məmmədova, İ. (2017). *İrəvan xanlığının əhalisi*. Azərbaycan Tarixçiləri İctimai Birliyi.

Mustafa N. (2025). *Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar.* "Orxan" NPM.

Umudlu, İ. (2024). *Azərbaycanın zadəgan nəsil şəcərələri (Tiflis, Yelizavetpol və İrəvan quberniyaları materialları əsasında).* Parlaq imzalar.